**UOT 94 (479.24)**

# AZƏRBAYCAN RESPUBLİKASININ İƏT ÇƏRÇİVƏSİNDƏ İSLAM İNKİŞAF BANKI İLƏ ƏMƏKDAŞLIĞI

**A.P.ƏHMƏDOV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***elelyonnn@yahoo.com***

***Uzun illərdir ki, biz bu səmərəli əməkdaşlıqdan böyük mənfəət götürürük və Azərbaycanın uğurlu iqtisadi inkişafında İslam İnkişaf Bankının xidməti çox böyük olmuşdur.***

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikası 1992-ci ildən İİB ilə sosial-iqtisadi əməkdaşlığını davam etdirir. İslamın şəriət prinsipləri çərçivəsində İslam Əməkdaşlığı Təşkilatına üzv olan ölkələrə faizsiz kredit verən bank ötən 20 ildən yuxarı vaxt ərzində təşkilatın fəal üzvlərindən olan Azərbaycan ilə mövcud sahədə əlaqələrini genişləndirmişdir. Kreditlər əsasən infrastruktur obyektlərin yenidən bərpa olunması, ölkədə səhiyyə, mədəniyyət, təhsil və elm sahələrinin inkişafına dəstək məqsədilə müqavilə əsasında verilir.*

*Məqalədə bəhs olunan əlaqələrin və perspektiv əməkdaşlığın davam etdirilməsinin bugünkü gündə də əhəmiyyət kəsb etdiyi göstərilmiş, bu işdə islam həmrəyliyinin rolu və yaxın tarixdə Azərbaycan hökumətinin İƏT çərçivəsində İİB ilə maliyyə-iqtisadi əməkdaşlığı tədqiq olunmuşdur.*

**Açar sözlər:** islam təşkilatı, iqtisadi əməkdaşlıq, humanitar yardım, şəriət prinsipi, islam kapitalı, müsəlman ölkələri, beynəlxalq islam bankı

Müsəlman dünyasının ən böyük maliyyə institutu olan İİB 1973-cü ilin dekabr ayında Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Konfransı Təşkilatına, 2011-ci ildə dəyişilmiş yeni adıyla İslam Əməkdaşlığı Təşkilatına üzv olan ölkələrin maliyyə nazirlərinin yekun bəyannaməsinə əsasən təsis edilmişdir. 1975-ci ilin iyun ayında açılışını edən İİB həmin ilin 20 oktyabr tarixindən rəsmi fəaliyyətə başlayır. Bank islamın şəriət qaydalarına müvafiq şəkildə müsəlman ölkələrinə maliyyə yardımı edir, güzəştli kreditlər verir. İİB yaradılarkən sərmayəsi 2 milyard islam dinarı idisə bu rəqəm 1993-cü ildə 6 milyarda yüksəlmiş, bunun da 4.1 milyardı bağışlanmış, 2.5 milyardı

geri ödənmişdir. 2000-ci ilin statistikasına əsasən 1 dinar 1.36 ABŞ dollarına bərabər olmuşdur [13, 114].

Yaradılarkən ehtiyacı olan müsəlman ölkələrinə yardım etməyi qarşısına məqsəd qoyan İİB İƏT-ə üzv olan ölkələrin maliyyə dəstəyi ilə fəaliyyət imkanlarını genişləndirə bilmişdir. Banka yatırılan sərmayədə ən yüksək hissəyə malik ilk yeddi ölkə Səudiyyə Ərəbistanı 24,6%; Küveyt 12,2%; Liviya 9,9%; İran 8,6%; Misir 8,5%; Türkiyə 7,8%; Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) 7% təşkil edir. Son beş ildə isə islam maliyyə vəsaitlərinin tutumu qlobal maliyyə İnstitutlarında 1.3$ trilyon, islam maliyyə bazarının tutumu 400 milyard $ dəyərində qiymətləndirilir. İllik artım sürəti isə 12-15% təşkil edir [12, 47-49].

Dünyada 1.5 milyarddan yuxarı müsəlman yaşayır, hansı ki, dünya əhalisinin 24%-ni, bu dövlətlər isə enerji ehtiyatlarının 80% ni təşkil edir demək mümkündür. Təşkilata daxil olan ölkələrdən bəzilərinin enerji resursları baxımından zəngin olması İƏT-in iqtisadi siyasətinin inkişafına ciddi təkan verməkdədir. Hazırda İİB-nın Azərbaycan da daxil olmaqla 56 üzvü var. Son illər ərzində isə şəriət qaydalarına uyğun olaraq iş quran islam banklarının aktivləri və hesabları uyğun olaraq 300 və 400 milyarda çatıb.

Azərbaycan Respublikası müstəqilliyinin bərpasından sonra 1991-ci ilin 8 dekabr tarixində İƏT-ə, 1992-ci ilin 4 iyulundan İİB-na üzv qəbul olunmuşdur [1, 45]. İkitərəfli əlaqələr ötən iyirmi ildə faydalı əməkdaşlığa yol açaraq Azərbaycanda həyata keçirilən aktiv iqtisadi siyasət İİB-nın respublikaya olan marağını artırmışdır. Bu baxımdan Azərbaycan hökumətinin ötən illər ərzində xarici siyasətində perspektiv sahə olan enerji siyasətini uğurla inkişaf etdirərək dünyanın nüfuzlu beynəlxalq iqtisadi qurumları ilə, o cümlədən İİB ilə yaratdığı əlaqələrinin tədqiqi aktual səslənir.

Müstəqilliyin ilk illərində digər sahələrlə yanaşı iqtisadi siyasətin dirçəldilməsi və bu yolla beynəlxalq iqtisadi qurumlarla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi baxımından müsbət nəticələrlə müşahidə olunmuşdur. Azərbaycan beynəlxalq maliyyə-kredit və müxtəlif nüfuzlu iqtisadi təşkilatlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO), təsisçilərindən olan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT), 1993-cü ildən Ümumdünya Ticarət Təşkilatına (keçmiş QATT) müşahidəçi statusunda, 1997-ci ildə yaradıcılarından biri olan, demokratiya və iqtisadi inkişaf naminə GUAM-a, 1999-cu ildə Asiya İnkişaf Bankına (AİB) üzv qəbul olunmuşdur [15, 157]. Qısa vaxt ərzində Azərbaycanın tanınmış iqtisadi-maliyyə təşkilatları ilə münasibətlərini inkişaf etdirməsi, dünya müsəlmanlarının həmrəyliyini əks etdirən İƏT-in və müsəlman dünyasının böyük maliyyə dəstəyi olan İİB ilə də əlaqələrə malik olması mövzunun bu istiqamətdə təhlilini şərtləndirmiş olur.

1992-ci ilin 3 iyun tarixində Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İİB ilə əlaqələrinin hüquqi bazasını təsdiq edən qərarın qəbul olunması bank ilə daha səmərəli əməkdaşlığa yol açmışdır. Qərarda deyilir:

*"Müsəlman ölkələri xalqlarının rifahının yaxşılaşması və ahəngdar inkişafı üçün səyləri birləşdirməyin zəruriliyini dərk edərək, bunun qarşılıqlı maliyyə əməkdaşlığı və iqtisadi əməkdaşlıq vasitəsilə daha tez həyata keçirilə biləcəyini sanaraq və İslam İnkişaf Bankının təsis edilməsi haqqında Sazişə istər bütövlükdə, istərsə də ayrı-ayrı maddələr üzrə razılıq verərək Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:*

*İslam İnkişaf Bankının təsis edilməsinə dair Sazişə Azərbaycan Respublikasının qoşulması bəyənilsin"* [3, 28]. Sazişə Azərbaycan hökuməti tərəfindən hüquqi qiymət verilməsi İİB ilə gələcək əməkdaşlığın sağlam təməl üzərində inkişafını təmin etdi. Ardınca, 1993-cü ilin 3 oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev bütün sahələrdə olduğu kimi ölkənin iqtisadi maraqlarının inkişaf etdirilməsi və formalaşmasında vacib rol oynadı.

1996-cı ilin 21 fevral tarixində ilk dəfə İİB-nın dəstəyi ilə Azərbaycanda Beynəlxalq İnvestisiya Konfransı keçirilir. Bu tədbir ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə, respublikanın müsəlman dünyası ilə iqtisadi əməkdaşlığının genişlənməsinə şərait yaradır. İnvestisiya Konfransında geniş nitq söyləyən Heydər Əliyev Azərbaycan Respublikasının İƏT-ə və İİB-na üzv seçilməsini mühüm hadisə kimi yüksək qiymətləndirmişdir: *"İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli, mötəbər konfrans bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı ilə və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da sürətləndirəcəkdir"*. Heydər Əliyevin İİB-nın geniş tərkibli konfransında ikitərəfli əlaqələrin inkişafına verdiyi yüksək dəyər Azərbaycan-İİB münasibətlərinin möhkəm təmələ söykəndiyini deməyə əsas verir. İİB ilə artıq müəyyən layihələrin həyata keçirildiyini söyləyən Heydər Əliyev qeyd etmiuşdir: *"İslam İnkişaf Bankı ilə Azərbaycanın əməkdaşlığı son illərdə, şübhəsiz ki, müəyyən nəticələr verir. Artıq müəyyən layihələr var, onların üzərində işləyib axıra çatdırmaq olar. Dünən axşam cənab Əhməd Məhəmməd Əli ilə görüşümüz, danışığımız zamanı bu barədə öz arzumu və xahişlərimi bildirdim. Bildiyimə görə, bu gün səhərdən bu sahədə əməli iş görülübdür və ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin iş davam etdiriləcək, İslam İnkişaf Bankı Azərbaycana daha çox diqqət göstərəcəkdir"* [18]. Konfransın əldə etdiyi müsbət nəticələr Azərbaycanın İİB ilə növbəti illərdə həyata keçirilən əməkdaşlıq əlaqələrinin inkişafına müsbət təsir göstərdi, infrastruktur və digər layihələrin reallaşması üçün ölkəyə güzəştli kreditlərin ayrılmasına nail olundu.

Azərbaycan Respublikası ilə İİB arasında əldə olunan razılaşmaya müvafiq olaraq Prezident Heydər Əliyev 1996-2003-cü illərdə ikitərəfli

əməkdaşlıq, güzəştli kreditlərin respublikaya cəlb olunmasına dair müxtəlif sərəncamlar imzalamışdır.

Heydər Əliyevin 1997-ci ilin 25 iyulunda Ələt-Qazıməmməd yolunun təmir olunması məqsədilə Azərbaycan hökuməti ilə İİB arasında borc sazişinə dair imzaladığı sənəd əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. Bu əlaqələrin davamı kimi 1998-ci ilin 21 dekabrında "Xanarx" kanalının layihəsi üzrə (I hissə) Azərbaycan-İİB arasında sərəncam imzalanmışdır [5].

2001-ci ilin 21 dekabrında Azərbaycan Respublikasına texniki yardım (qrant) sazişinin imzalanması İİB ilə iqtisadi əməkdaşlığın genişlənməsi baxımından sonrakı illərdə də əhəmiyyət kəsb etmişdir. 2002-ci ilin 29 yanvarında Azərbaycan Respublikası hökuməti ilə İİB arasında "Xanarx" kanalının (II hissə) layihə üzrə borc sazişinin təsdiq edilməsi, 4 aprel tarixində texniki yardıma dair qrant sazişi, daha sonra Heydər Əliyevin Azərbaycanın özəl sektorunun inkişafı üzrə İslam Korporasiyasının yaradılması haqqında sazişə qoşulması barədə 31 oktyabr tarixli sərəncamı İİB ilə münasibətlərin perspektiv istiqamətini təyin etmişdir [4].

2003-cü ilin 19 martında Azərbaycan hökuməti ilə İİB arasında zəlzələdən zərər çəkmiş fiziki və sosial infrastruktur obyektlərinin yaxşılaşdırılmasına dair, 25 il müddətinə yeddi milyon islam dinarı məbləğində borc sazişi, bu sazişin 4 iyul tarixində təsdiq edilməsi ikitərəfli əlaqələrin möhkəm təməlini bir daha əsaslandırmış olur [6]. Görüldüyü kimi əməkdaşlıq əlaqələrinin birinci mərhələsindən keçən illər ərzində Azərbaycan Respublikası qısa vaxtda İİB ilə səmərəli sosial-iqtisadi münasibətlərin yaradılmasına və dinamik inkişafına nail olmuşdur.

2003-2012-ci illər Azərbaycanın İİB ilə qurulan iqtisadi münasibətlərində əməkdaşlıq baxımından daha perspektivli ikinci mərhələ sayılır. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev İƏT və beynəlxalq siyasi-sülh təşkilatının iqtisadi, mədəni siyasətini həyata keçirən İİB, İSESKO ilə əlaqələrə böyük diqqət ayırmışdır. İkitərəfli münasibətlərdə intensiv inkişafın təmin edilməsi ölkənin müsəlman dünyasına yaxından tanıdılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə hər iki qurumun dəstəyini artırmışdır.

Bu illər ərzində Azərbaycan hökumətinin İİB ilə əlaqələrini yenidən nəzərdən keçirməsi yerli bankların beynəlxalq islam bankı ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində, müxtəlif layihələrin həyata keçirilməsi üçün güzəştli kreditlərin alınması istiqamətində səmərəni artırmışdır.

2004-cü ilin 26 dekabr tarixində İİB-nın prezidenti Əhməd Məhəmməd Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev beynəlxalq islam bankı ilə ikitərəfli münasibətlərdən məmnun olduğunu dilə gətirərək, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişafın əldə olunmasında beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığın genişləndirilməsinin hər zaman vacib olduğunu vurğulamışdır [2].

Həmin ilin 11 may və 11 iyun tarixlərində Ucar-Yevlax avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsilə bağlı Prezident İlham Əliyevin sərəncamları gələcək illərdə İİB ilə qurulan əlaqələrin genişlənməsi baxımından faydaqlı olmuşdur. Azərbaycan Respublikasının İİB ilə iqtisadi və maliyyə əməkdaşlığının sonrakı illərində, 2005-ci ilin 27 may tarixində Xaçmaz şəhər yarımstansiyası və elektrik verilişi layihəsi üzrə dövlət başçısının sərəncamı bölgələrin sosial inkişafının həyata keçirilməsi istiqamətində həyata keçirilən layihələrdən biri olmuşdur [7].

Ötən illərdə Azərbaycan hökuməti İİB ilə "Azərbaycan Respublikasının altı rayonunda (Daşkəsən, Gədəbəy, Qazax, Samux, Astara, Tərtər) milli su təchizatı və kanalizasiya xidmətləri proqramına dəstək" layihəsi çərçivəsində imzalanan istisna ilə 200.05 milyon ABŞ dolları vəsait almış və əldə olunan vəsait layihə çərçivəsində satın alınacaq mallar üzrə ödəniş, işlər, digər xidmətlər və məsləhətçi xidmətlərinə tətbiq olunmuşdur [11].

İİB digər üzv ölkələrdə olduğu kimi, Azərbaycanda da təhsil və mədəniyyətin inkişafına dəstək məqsədilə müxtəlif layihələr reallaşdırmaqdadır. Bu baxımdan beynəlxalq bankın respublikanın Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası, Heydər Əliyev Fondu və s. qurumlarla əməkdaşlığını qeyd etmək olar. 2009-cu ildən Təhsil Nazirliyi ilə İİB arasında qəbul olunmuş qərara əsasən elm və yüksək texnologiya sahəsində təqaüd proqramı və qrant layihələri həyata keçirilir. Bu proqram və layihələrdən hazırda azərbaycanlı tələbə və gənc alimlər də yararlanmaqdadır. Təqaüd proqramı çərçivəsində lazer və fiber-optika, naqil və yarımnaqillər, polimerlər, gen mühəndisliyi-biotexnika, nüvə fizikası-mühəndislik, elektronika, mikroelektronika-telekommunikasiya, kompüter elmləri (avtomatlaşdırılmış proyektləşdirmə-avtomatlaşdırılmış istehsal daxil olmaqla), bərpa olunan enerji mənbələri, yanacaq texnologiyası, hidrologiya, su resursları, metallurgiya, kimya mühəndisliyi – materiallar haqqında elm, tibb-dərman vasitələri, kənd təsərrüfatı, yeyinti texnologiyası, sistem mühəndisliyi, kosmik fəza haqqında elm-texnologiya, ətraf mühitin qorunması texnologiyası, texnologiya və innovasiyaların idarə olunması (ancaq gənc alimlər üçün) ixtisasları və tədqiqat sahələrinə qrantlar ayrılmışdır [14].

2010, 2011, 2012-ci illərdə olduğu kimi növbəti 2013-2014-cü illər üçün də İİB tərəfindən təqaüd proqramı elan olunmuşdur. Proqram layihəsi üzrə AMEA ilə əməkdaşlığını davam etdirən İİB-yə üzv olan ölkələrdən istedadlı gənclərin dünyanın bir sıra qabaqcıl universitetlərində doktorantura təhsili (PhD, 3 il müddətinə) almaq və doktoranturadan sonra tədqiqat işlərini (Post-dok, 6-12 ay müddətinə) aparmaq imkanı yaradılır. Növbəti illər üçün təqaüd proqramında 25 nəfərin iştirakı nəzərdə tutulur [20].

2010-cu ilin 23 iyununda İİB-nın müdirlər şurasının illik 35-ci Bakı toplantısında iştirak edən dövlət başçısı İlham Əliyev İƏT-in maliyyə institutu olan İİB-nın Azərbaycanda həyata keçirdiyi sosial layihələrin əhəmiyyətinə toxunaraq qeyd etmişdir: *"Əməkdaşlığımızın gözəl perspektivləri vardır. Azərbaycan öz inkişaf dövrünü yaşayır və bankın xətti ilə Azərbaycanda həyata*

*keçirilmiş layihələr özünü doğruldur. Ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün biz gələcəkdə də iqtisadi islahatlarımızı davam etdirəcəyik. Bir sözlə, mən qeyd etmək istəyirəm ki, İslam İnkişaf Bankı ilə Azərbaycan arasında bugünə qədərki əməkdaşlıq çox uğurlu olmuşdur. Biz bu əməkdaşlıqdan çox məmnunuq və ümid edirik ki, biz gələcəkdə də bu əməkdaşlığın dərinləşməsinə bərabər səylərimizi göstərəcəyik"* [19]. Prezident İlham Əliyevin çıxışında İİB ilə əməkdaşlıq əlaqələrinin inkişafından məmnun olduğunu xüsusilə nəzərə çatdırması hər iki tərəfin, Azərbaycan və beynəlxalq islam bankının maliyyə və sosial-iqtisadi əməkdaşlıqda maraqlı olduqlarını açıq şəkildə əks etdirir.

İİB-nın Azərbaycan Respublikasına iqtisadi-maliyyə dəstəyi çərçivəsində 2011-ci ilin 16 dekabr tarixində Ucar, Zərdab, Ağcabədi avtomobil yolunun genişləndirilməsi və yenidən qurulması layihəsi üzrə texniki, iqtisadi əsaslandırmanın hazırlanmasına dair texniki yardım (qrant) sazişinə dair Nazirlər Kabinetinin sərəncamı ölkədə infrastruktur layihələrin həyata keçirilməsinin məntiqi davamı kimi atılan addımlardan idi. İİB bu layihəyə də əvvəlki illərdə imzalanan layihələr kimi xeyli maliyyə vəsaiti – 194 min islam dinarı ayırmışdır [9].

İİB Azərbaycanda kənd təsərrüfatının inkişafına dəstək məqsədilə müxtəlif tərkibli kreditlər ayırmışdır. Bu səbəbdən 2011-ci ilin 16 fevralında Kənd Təsərrüfatı Nazirliyi ilə İİB arasında ölkədə pambıq sortlarının və səmərəli becərmə texnologiyasının kiçik fermer təsərrüfatlarında tətbiqi və yayılması layihəsi ilə bağlı dövlət başçısının imzaladığı sərəncam gələcək illərdə mövcud sahədə müsbət nəticələri artıracaqdır [8].

İİB qrupuna daxil olan özəl sektorun inkişafı üzrə İslam Korporasiyası (ICD) Azərbaycanda maliyyələşdirmənin həcmini artırmağı planlaşdırır. Bu barədə 2011-ci ilin 2 dekabrında MDB dövlətlərinin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Konfransında ICD-nin aktivlərin idarə olunması və konsultativ fəaliyyət üzrə departamentinin direktoru Hazih Hişam əl-Nasir bildirib. İİB-nın Azərbaycandakı nümayəndəsi Tamerlan Tağıyevin verdiyi açıqlamaya görə son iyirmi ildə İİB-nın Azərbaycandakı portfeli 1.2 milyard dollar təşkil etmişdir. İslam maliyyələşdirməsi sahəsində ekspert Xalid Yusifin sözlərinə görə, Azərbaycan islam bankçılığının inkişafı üçün böyük potensiala malikdir. Bundan əlavə X.Yusif: *"Azərbaycan hətta bankçılığın bu modelinin xaricdə ixracatçısı olmaq imkanlarına da malikdir"* deməklə respublikanın beynəlxalq iqtisadi-siyasi əməkdaşlıq əlaqələrinə toxunmuşdur [10].

Hazırda Azərbaycan İİB-da 9,76 mln. ABŞ dolları (ümumi səhm kapitalının 0,13%) pay sahibi olmaqla onun işində yaxından iştirak edir [17]. Bu baxımdan Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində faizsiz bank institutlarının vəsaitlərindən istifadə olunması istiqamətində İİB ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Azərbaycanın xarici siyasəti (sənədlər məcmuəsi), 18 clddə, II c., Bakı: Qoliaf nəşriyyat evi MMC, 2003, 327 s.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir / "Azərbaycan" qəzeti № 299, 25 dekabr, 2004.
3. Azərbaycan Respublikası Ali Sovetinin qərarlarının qeydiyyatı dəftəri № 152, 1991-1992.
4. Azərbaycan Respublikası Prezidentinin sərəncamı № 641, 25 iyul, 1997 / www.e-qanun.az/print.php?intera
5. Azərbaycan Respublikası Prezidentinin sərəncamı № 181, 2 iyul, 1999 / www.e-qanun.az/files/framework/data
6. Azərbaycan Respublikası Prezidentinin sərəncamı № 1294, 4 iyul, 2003 / www.elibrary.az/cgi/.../cgiirbis_64.e
7. Azərbaycan Respublikası Prezidentinin sərəncamı № 830, 27 may, 2005 / www.e-qanun.az/files/framework/da
9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı № 47s, 16 fevral, 2011 / www.dejure.az/nazirlr-kabine
10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı № 409s, 16 dekabr, 2011 / www.budget.az/budget
11. Axundov A. İslam İnkişaf Bankı Azərbaycanda maliyyələşdirməni artırır / www.az.trend.az/capital/business
12. Azərbaycan Respublikasının altı rayonunda (Daşkəsən, Gədəbəy, Qazax, Samux, Astara, Tərtər) milli su təchizatı və kanalizasiya xidmətləri proqramına dəstək layihəsi / www.azersu.az/userfiles/tender-az(1).doc
13. Dursun D. İslam Kalkınma Bankası. İslam Ensiklopediyası. 24 cilddə, XXIII c. İstanbul: Diyanət vəqfi, 2001.
14. Əhmədov A. Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı (İKT) və müsəlman ölkələri ilə iqtisadi əməkdaşlığına dair / AMEA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq), № 10, 2009.
15. Həmzəli M. İslam İnkişaf Bankı və Azərbaycan / www.deyerler.org
16. İslam İnkişaf Bankı. Azərbaycan İqtisadi Ensiklopediyası. 5 cilddə, II c., Bakı: Elm, 2012, 641 s.
17. İslam İnkişaf Bankı (İİB) tərəfindən elm və yüksək texnologiya sahəsində təqaüd proqramının həyata keçirilməsi planlaşdırılır / www.edu.gov.az/view.php?lang=az&menu=9&id=869
18. İslam bankçılığı / www.turanbank.az/?/az/content/413/
19. İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi / www.aliyev-heritage.org
20. İslam İnkişaf Bankı qrupunun 35-ci illik toplantısının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi /www.anl.az/down/meqale/azerbaycan/2010/iyun/125383.htm
21. 2013-2014-cü illər üzrə İslam İnkişaf Bankının təqaüd proqramı elan olunur / www.science.gov.az/az/index.p


## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ИСЛАМСКИМ БАНКОМ РАЗВИТИЯ В РАМКАХ ОИС


**А.П.АХМЕДОВ**


### РЕЗЮМЕ


Азербайджанская Республика в 1991 году была принята в члены ОИС, а в 1992 году – Исламский Банк Развития.

Двусторонние связи Азербайджана с международным исламским банком в последние двадцать лет открыли путь динамичному сотрудничеству, который в соответствии с принципами шариата, оказывает социально-экономическую помощь членам ОИС.

В статье исследуются экономические взаимоотношения с Исламским Банком Развития в рамках ОИС, после восстановления независимости Азербайджанской Республики.

**Ключевые слова:** исламская организация, экономическое сотрудничество, гуманитарная помощь, шариатский принцип, исламский капитал, мусульманские страны, международный исламский банк

## COOPERATION OF THE AZERBAIJAN REPUBLIC WITH ISLAMIC DEVELOPMENT BANK WITHIN OIS

**A.P.AHMADOV**

## SUMMARY

The Azerbaijan Republic was accepted to the membership of OIS in 1991, and Islamic Development Bank in 1992.

Bilateral ties of Azerbaijan with the international Islamic bank in the last twenty years opened a way to dynamic cooperation which according to the principles of shariat, renders social and economic assistance to the members of OIS.

The article investigates economic relations with Islamic Development Bank within OIS after restoration of independence of the Azerbaijan Republic.

**Key words:** Islamic organization, economic cooperation, humanitarian help, shariat principle, Islamic capital, Muslim countries, international Islamic bank